# USAİD-in "qara oyunları"

## ABŞ bu təşkilat və digər qurumlar vasitəsilə yeni dövlət çevrilişlərinə cəhd göstərir?

"ABŞ-nin USAİD təşkilatının adı yalnız Gürcüstanda deyil, bir çox dövlətlərdə qarşıdurma, iğtişaş, dövlət çevrilişlərinə cəhd məsələlərində dəfələrlə hallanıb. On il əvvəl təşkilat Azərbaycanda da mövcud idi və ümumi baxsaq, cəmiyyətin inkişafına töhfə verən layihələrin həyata keçirilməsini təmin edib. Amma təşkilatın adı çox vaxt siyasi məsələlərdə çəkilib".



Bu sözləri "Azərbaycan"a açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov bildirdi. Onun fikrincə, Gürcüstanın siyasi partiyasının və Dövlət Təhlükəsizlik Xidmətinin bəyanatları həqiqəti əks etdirir. Çünki həmin məlumatlarda bu təşkilatın maliyyə dəstəyi əsasında hakimiyyət dəyişikliyi məqsədilə zorakı etiraz aksiyası metodları üzrə təlim keçən üç serbiyalı üzvünün Gürcüstanda səfərdə olduqları və onların burada tədbir təşkil etdikləri qeyd olunur: "Tədbirdə Gürcüstandakı gənclər təşkilatları, bir çox bloqçu və gənclər iştirak ediblər. Görüşün əsas məqsədi oktyabr, dekabr aylarında Gürcüstanda iğtişaşlar yaratmaq və dövlət orqanları qarşısında çadırlar quraraq itaətsizlik göstərib hökumət çevrilişini təşkil etmək imiş. Bu, Gürcüstan DTX-nin məlumatında da qeyd olunub. Həmin nümayəndələr Dövlət Təhlükəsizlik Xidmətinə dəvət olunublar. Onların izahatları törətdikləri əməllərlə ziddiyyət təşkil edib, məqsədlərinin bu olmadığını bildiriblər və Gürcüstan ərazisini tərk ediblər".

Deputatın sözlərinə görə, həm hakim "Gürcü arzusu" partiyasının bəyanatında, həm də DTX-nin açıqlamasında qeyd olunur ki, ABŞ Gürcüstanda 2003-cü il hadisələrini təkrar etmək istəyir. Artıq rəsmi Tbilisi bununla bağlı hərəkətə keçib. Konkret mövqe ortaya qoyulub ki, ABŞ USAİD və digər qurumlar vasitəsilə Gürcüstanda dövlət çevrilişinə cəhd göstərir.

"USAİD və digər belə təşkilatlar nizamnaməsində demokratiya, insan haqlarından, gender bərabərliyindən, zorakılığa qarşı tədbirlərdən bəhs etsə də, əslində, bunun əksinin şahidi oluruq", - deyə qeyd edən deputat düşünür ki, heç bir dövlət bundan sığortalanmayıb. Ölkəmizə gəldikdə, gənclərimiz bu mənada daha vətənpərvər, daha mütərəqqi, milli-mənəvi dəyərlərə malikdirlər: "Azərbaycan dövləti müvafiq fondlarla gənclər təşkilatlarını, hətta gənclərin fərdi layihələrini maliyyələşdirir. Qrant layihəsini dövlət özü təmin edir. Digər dövlətlərə çevriliş, itaətsizlik ixrac edən hər bir təşkilat barədə məlumatlıyıq. ABŞ ilə yanaşı, Avropa ölkələrinin də belə qurumları mövcuddur. Bir çoxu bəyanatlarında selektiv yanaşma ortaya qoyur. Son zamanlar Gürcüstanda baş verən hadisələrə dövlətin reaksiyası onu deməyə əsas verir ki, belə problemlər artıq qonşu ölkədə də var".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 5 oktyabr.- S.5.